

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 47 (23.934)

*10 mart 2022-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan ilə Böyük Britaniya əlaqələrinin yüksək səviyyədə olduğunu və strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini vurğulayaraq ölkələrimiz arasında qarşılıqlı inam və etimadın olduğunu qeyd edib.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson diplomatik münasibətlərimizin qurulmasının bu il 30 illiyinin qeyd edildiyini məmnunluqla vurğulayıb və bu münasibətlə Böyük Britaniya Baş nazirinin dövlətimizin başçısına ünvanlandığı məktuba diqqət çəkib.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi, ticarət əlaqələrinin genişləndirilməsi, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb. Görüşdə regional məsələlər və Ukrayna ətrafında cərəyan edən hadisələr müzakirə olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 7 mart tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-mədəni həyatında səmərəli fəaliyyətlərinə görə və 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bir qrup qadın "Tərəqqi" medalı ilə təltif edilmişdir. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikasının ictimai-mədəni həyatında səmərəli fəaliyyətlərinə görə fərqlənən qadınlar da vardır:

**İmanova Mehriban Təyyar qızı**

**Rzayeva Yazgül Həsənəli qızı**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Muxtar respublikada arıçılığın inkişafı üzrə davamlı tədbirlər görülür



Aqrar sektorun gəlirli sahələrindən biri olan arıçılığın inkişafı məqsədilə həyata keçirilən kompleks tədbirlər bu sahədə yeni təsərrüfat subyektlərinin yaradılmasına, əhalinin məşğulluğuna və keyfiyyətli yerli məhsullarla təminatına müsbət təsir göstərib.

Sahibkarlara dövlət tərəfindən hər arı ailəsinə görə subsidiyaların və pulsuz dərman preparatlarının verilməsi, beynəlxalq və yerli əhəmiyyətli elmi-praktik konfransların keçirilməsi, muxtar respublikanın əlverişli təbii-iqlim şəraiti və zəngin yem ehtiyatı, həmçinin "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin təsis olunması və sahibkarların maliyyə resurslarına çıxış imkanlarının yaxşılaşdırılması arıçılığın inkişafını təmin edib.

Görülən tədbirlərin nəticəsidir ki, təkcə 2021-ci ildə arıçılıqla məşğul olan təsərrüfat subyektlərinə 505 min manat məbləğində kredit verilmişdir. 2021-ci ildə 15 arıçılıq təsərrüfatının yaradılması, 2 arıçılıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 1 arıçılıq təsərrüfatının yaradılması, 1 arıçılıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir. Ümumilikdə, son beş ildə təsərrüfat subyektlərinə 2 milyon 27 min manat kredit verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın uğurlu icrası bu sahədə həyata keçirilən tədbirlərin davamlılığını təmin etmişdir. Həmçinin "Arıçılıq məhsulları-bal satış yarmarkası"nın keçirilməsi bu sahənin inkişafına ciddi təsir göstərib.

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq 1 yanvar 2022-ci il tarixə muxtar respublikada 100 min 86 arı ailəsi mövcud olmuşdur ki, bu da 2017-ci ilin sonu ilə müqayisədə 40,8 faiz çoxdur.

***Arı ailələrinin sayı***




2021-ci ilin sonunda ümumi arı ailələrinin 12978-i Şərur, 14984-ü Babək, 18939-u Ordubad, 18658-i Culfa, 2206-sı Kəngərli, 26920-si Şahbuz, 906-sı Sədərək rayonlarının, 4495-i isə Naxçıvan şəhərinin payına düşüb.

Arı ailələrinin artımı məhsul istehsalına müsbət təsir göstərmiş, 2021-ci ildə muxtar respublikada 1506 ton bal istehsal olunmuşdur ki, bu da 2017-ci illə müqayisədə 5,8 faiz artım deməkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər fevral ayında da davam etdirilib.

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 25 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 326 müraciət daxil olmuşdur ki, bunlardan 139-u əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 187 müraciətin icrası təmin olunmuş, həmin müraciətlərdən 44-ü elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Keyfiyyət amili diqqətdə saxlanılır

*Muxtar respublikada istehsal olunan məhsulların keyfiyyətinə nəzarət işi fevral ayında da diqqətdə saxlanılmış, qida məhsullarının keyfiyyət göstəriciləri üzrə 52 halda laboratoriya sınağı aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.*

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Baytarlıq Xidmətinin, Dövlət Sığorta Xidməti publik hüquqi şəxsin və "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin nümayəndələri ilə birlikdə fevralın 15-də Culfa rayonunun Milax və fevralın 22-də Ordubad rayonunun Dəstə kəndlərində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüşlər keçirilmiş, bal məhsulunun fiziki-kimyəvi göstəricilərinə dair müvafiq standartdan çıxarışlar təqdim olunmuşdur.

Qəbul edilmiş müvafiq Dövlət proqramlarının icrası istiqamətində ötən ay emal olunmuş kənd təsərrüfatı məhsullarının 19, meyvə-tərəvəz məhsullarının isə 14 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin standartlara uyğunluğu müəyyən edilmişdir.

"2022-ci ilin Naxçıvan Muxtar Respublikasında "Sənaye ili" elan edilməsinə dair Tədbirlər Planı"nın icrası istiqamətində fevral ayında İqtisadiyyat Nazirliyi ilə birgə Şərur, Kəngərli və Sədərək rayonlarında fəaliyyət göstərən, ümumilikdə, 20 istehsal müəssisəsi ilə maarifləndirici görüşlər keçirilmiş, ISO beynəlxalq standartların tətbiqi, əmtəə nişanlarının beynəlxalq sistem vasitəsilə qeydiyyatı, beynəlxalq sertifikatlaşdırma ilə bağlı məlumatlar çatdırılmış və beynəlxalq sertifikatlaşdırmanı tətbiq etmək istədikləri halda müvafiq köməkliklərin və əlaqələndirmə üzrə dəstəyin göstəriləcəyi təsərrüfat subyektlərinin diqqətinə çatdırılmışdır. Bununla yanaşı, müəssisələrə standartlaşdırma üzrə dəstək göstərilmiş, istehsal sahələrinə uyğun müvafiq standartlardan çıxarışlar təqdim edilmişdir. Ötən ay sənaye məhsulları üçün 5 adda əmtəə (xidmət) nişanının ölkə üzrə, 1 adda əmtəə (xidmət) nişanının beynəlxalq sistem vasitəsilə qeydiyyata alınması istiqamətində icra proseduru başlanılmış və əmtəə nişanının mühafizəsi üzrə 5 şəhadətnamə iddiaçılara təhvil verilmişdir.

Muxtar respublika iqtisadiyyatında ailə təsərrüfatı modelinin dəstəklənməsi işi davam etdirilməkdədir. Fevralın 11-də Culfa rayonunun Əbrəqunus kəndində İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin, AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə birlikdə ailə təsərrüfatları üçün seminar-müşavirə keçirilmiş, 33 ailə təsərrüfatına maarifləndirici bukletlər və "Naxçıvan qovurması" əmtəə nişanlı etiketlər təqdim olunmuşdur. Hesabat ayında 6 ailə təsərrüfatı üçün istehsal etdikləri məhsulların etiketlərində məhsulun




adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılması, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə 24 etiket layihəsi hazırlanmışdır. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün ay ərzində İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birgə məhsullardan 10 halda nümunələr seçilərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin standartlara uyğunluğu müəyyən edilmişdir.

2017-ci il 25 iyul tarixli beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında xarici bazarlara çıxış imkanına malik məhsul istehsalına diqqətin artırılması, qarşıdakı dövrdə bu imkanların bir daha araşdırılması, ixracın coğrafiyasının genişləndirilməsi üçün verilmiş tapşırıqların, "Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı"nın icrası istiqamətində muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının iqtisadi aktivliyi ardıcıl qaydada dəstəklənməkdədir. Xidmətin təşəbbüsü ilə yaradılmış müvafiq sahibkarlıq subyektləri qrupu tərəfindən Bakı şəhəri və digər bölgələrimizə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin edilmişdir.

"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası üzrə aidiyyəti orqanların əməkdaşları ilə birlikdə fevralın 10-da Babək rayonunun Kültəpə kəndində 20 kənd təsərrüfatı məhsulları istehsalçısının iştirakı ilə seminar-müşavirə keçirilmişdir.

Muxtar respublikada istehsal olunan alkoqollu içkilərin keyfiyyətinin diqqətdə saxlanılması üçün 2 müəssisədə istehsal olunan arağın 1, pivənin 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartlara uyğunluğu müəyyən edilmişdir.

Hesabat ayında Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə idxal olunan qaz cihazlarına baxış keçirilmiş və müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan cihazların idxalına icazə verilməmişdir.

Muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

*10 mart Azərbaycanda Qızıl Aypara Cəmiyyətinin yarandığı gündür*

# Humanizm və xeyirxahlıq ideyalarının qoruyucusu

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 7 aprel tarixli Sərəncamına əsasən hər il martın 10-u Azərbaycan Respublikasında "Qızıl Aypara Günü" kimi qeyd olunur.*

Humanizm və xeyriyyəçilik anlayışlarının kökləri qədim dövrlərə, təmənnasız könüllü fəaliyyətin, əsasən, ehtiyacı olanlara kömək göstərilməsi ilə məhdudlaşdığı vaxtlara gedib çıxır. Müasir dövrümüzdə bu anlayışların hər biri özlüyündə daha geniş məna daşımaqla cəmiyyətin sosial rifahı naminə bütün təmənnasız könüllü fəaliyyət növlərini əhatə edir. Azərbaycanda humanitar və xeyriyyəçilik dəyərlərini özündə təcəssüm etdirən Qızıl Aypara Cəmiyyəti 1920-ci il martın 10-da Azərbaycan Respublikasının müdafiə naziri, general-leytenant Əliağa Şıxlınskinin təşəbbüsü ilə təsis edilmişdir. Yarandığı vaxtdan qurumun başlıca məqsədi də xeyirxah ideyalar olmuş, kimsəsizlərə, fəlakətlə üz-üzə dayananlara, ehtiyacı olanlara kömək göstərmişdir. Lakin 1920-ci ilin aprelində Azərbaycanda sovet hökuməti qurulduqdan sonra Qızıl Aypara Cəmiyyətinin də fəaliyyəti dayandırılmışdır. 1923-cü ildə yenidən həyata vəsiqə alan cəmiyyət 1991-ci ilə kimi özünəməxsus tarixi yol keçməklə ölkəmizdə xeyirxah ideyaların reallaşmasına mühüm töhfələr vermişdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan Qızıl Aypara Cəmiyyətinin iyirminci qurultayına göndərdiyi təbrik məktubunda deyilir: ***"Qızıl Aypara Cəmiyyəti bu gün öz qüvvələrini səfərbər edərək, müstəqil Azərbaycan Respublikası qarşısında duran vəzifələrin yerinə yetirilməsində yaxından iştirak edir... Azərbaycan Respublikasının müstəqil dövlət kimi həyata keçirdiyi xarici siyasət beynəlxalq aləmdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin də fəaliyyət dairəsini genişləndirir, onun inkişafı üçün yeni perspektivlər açır".*** Ümummilli liderin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, Azərbaycan Qızıl Aypara Cəmiyyətinə də diqqət və qayğı artırılmışdır. Belə ki, Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə bu cəmiyyət ölkəmizdə yeganə rəsmi humanitar təşkilat kimi tanınmışdır. 1995-ci il noyabrın 27-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara cəmiyyətləri Federasiyasının tam bərabərhüquqlu və daimi üzvü qəbul edilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin 2004-cü il 31 yanvar tarixli "Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında", 2007-ci il 22 may tarixli "Azərbaycan Qızıl Aypara Cəmiyyətində çalışan işçilərin əməkhaqlarının dövlət büdcəsindən maliyyələşdirilməsi haqqında", 2008-ci il 7 aprel tarixli "Qızıl Aypara gününün təsis edilməsi haqqında" sərəncamları cəmiyyətin fəaliyyətinin dövlətimizin diqqətində olduğunun göstəricisidir. Sərəncamlara əsasən cəmiyyətin maddi-texniki bazası yaxşılaşdırılmış, icra hakimiyyəti və özünüidarəetmə orqanlarının cəmiyyətin yerli təşkilatlarının sosial, tibbi sağlamlıq və xeyriyyəçilik proqramlarının həyata keçirilməsinə köməklik göstərməsi təmin olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Qızıl Aypara Cəmiyyətinin XXIV Baş Məclisinə göndərdiyi məktubda söylənilən fikirlər cəmiyyətin fəaliyyətinə verilən qiymətin təzahürüdür: ***"Respublikamızın müasir ictimai və sosial həyatında Qızıl Aypara Cəmiyyəti özünəməxsus yer tutur, humanizm və könüllülük prinsiplərinə əsaslanaraq qayğıya ehtiyac duyan insanlara lazımı yardım göstərir".***

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi də dövlətin qayğısından lazımınca bəhrələnir. 2008-ci il yanvarın 10-da komitə yeni inzibati bina ilə təmin olunmuş, maddi-texniki baza yaxşılaşdırılmış, xidməti və yük avtomobilləri verilmiş, əməkdaşların səmərəli fəaliyyətinə hərtərəfli şərait yaradılmışdır. Son illər kollektivin sosial təminatının gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlər görülmüş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 1 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi işçilərinin əməkhaqları 25, 2010-cu il 1 sentyabr və 2011-ci il 1 dekabr tarixli sərəncamlarına əsasən isə 10 faiz artırılmışdır. Ali Məclis Sədrinin diqqət və qayğısının nəticəsidir ki, 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi işçilərinin əməkhaqları 10 faiz, 2016-cı ilin fevral ayında isə əlavə 10 faiz artırılmışdır. 2018-ci ildə komitəyə yeni "NİVA" markalı minik avtomobili verilmişdir. 2019-cu ilin sentyabr ayında komitə işçilərinin əməkhaqları əlavə olaraq artırılmışdır. 2022-ci ilin yanvar ayında isə komitə işçilərinin əməkhaqları əlavə olaraq 20 faiz artırılmışdır.

Tərkibində 1 şəhər, 7 rayon bölməsi fəaliyyət göstərən komitənin 580 ilk təşkilatı və 37 mindən artıq üzvü vardır. Hazırda komitə öz işini 4 şöbə əsasında qurur. Belə ki, Axtarış xidməti şöbəsi Stalin repressiyası, İkinci Dünya müharibəsi və miqrasiya zamanı itkin düşənlər, həmçinin qaçqın və məcburi köçkünlər üçün lazımı sənədləri bərpa edir. Komitənin Gənclər və könüllülərlə iş şöbəsi gələcəyimiz olan gənclər arasında sağlamlığın təmin edilməsi məqsədilə idman, gigiyena, təmizlik və təbiətin mühafizəsi kimi tədbirlərin təşkili ilə məşğul olur. Eyni zamanda yeniyetmə və gənclərə fövqəladə hallarda ilk tibbi yardımın göstərilməsinə dair məlumatlar verilir. XX əsrin vəbası adlandırılan QİÇS xəstəliyinə yoluxmamaq üçün onlar arasında maarifləndirici söhbətlər aparılır. Təşkilati iş şöbəsi muxtar respublikada fəaliyyət göstərən idarə və müəssisələrdə komitənin ilk təşkilatları yaradır və Qızıl Aypara hərəkatı haqqında seminar və treninqlər təşkil edir. Bununla yanaşı, komitənin şəhər və rayon bölmələrinin işinə nəzarəti də həyata keçirir. Digər şöbə isə fövqəladə hallarla bağlı əhali arasında bilikləri artırmaqla və bu sahədə müvafiq tədbirlər görməklə məşğul olur. Bunun nəticəsi olaraq 2017-ci ilin yanvar ayında fövqəladə hallara hazırlıq çərçivəsində Bakı şəhərindən hər biri beş nəfərin müvəqqəti yaşaması üçün nəzərdə tutulmuş 30 çadır komitəyə gətirilmişdir. 2020-ci ilin sentyabr ayında pandemiya ilə əlaqədar olaraq xüsusi qayğıya ehtiyacı olan ailələr üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən ayrılmış 320 qutu ərzaq məhsulları və 320 qutu gigiyenik dezinfeksiya ləvazimatları muxtar respublikaya gətirilmiş, şəhər və rayonlarda xüsusi qayğıya ehtiyacı olan 320 ailəyə paylanılmışdır.

*Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin kollektivi bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, humanizm və xeyirxahlıq ideyalarının qoruyucusu və təşkilatçısı kimi fəaliyyətini daha da artıracaqdır.*

**Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi**

# Aqrar sığorta:
## sosial-iqtisadi inkişafa yeni stimul

*Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə qəbul olunan və uğurla reallaşdırılan Dövlət proqramları, həmçinin 2015-ci ilin muxtar respublikada "Kənd təsərrüfatı ili", 2019-cu ilin isə "Ailə təsərrüfatları ili" elan olunması, bunlarla əlaqədar həyata keçirilmiş fundamental tədbirlər aqrar sektorun əsaslı yüksəlişinə rəvac vermişdir.*

Belə ki, muxtar respublikada torpaqlardan səmərəli istifadə olunması, torpaq mülkiyyətçilərinə müxtəlif sahələrdə dəstək göstərilməsi, anbarlar yaradılması, satış yarmarkaların təşkil olunması, maşın, mexanizm, gübrə təminatının yaxşılaşdırılması, məhsuldar sort və cinslərin yetişdirilməsi, xaricdən alınması, aqrar sahə üzrə mütəxəssislərin, aqronom və baytarların hazırlanması daim dövlətin diqqət mərkəzində saxlanılır. Görülən kompleks işlər nəticəsində diyarımızda bu sahənin dayanıqlı inkişafı, onun çoxşaxəliliyi təmin olunub, müxtəlif bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı üçün əlverişli zəmin yaradılıb. Hazırda Naxçıvanda mövcud torpaq, su, iqlim ehtiyatlarından, habelə maddi-texniki bazadan səmərəli istifadə olunması ilə aqrar sahədə yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları istehsalı üçün hər cür imkanlar vardır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasındakı çıxışında ərzaq təhlükəsizliyinin təmin olunmasını inkişafın əsas hədəfi kimi dəyərləndirərək demişdir: ***"Muxtar respublikada aqrar sahədə görülən işlər, həyata keçirilən islahatlar da bu məqsədə hesablanmışdır. Qarşıdakı dövrdə də bu sahədəki fəaliyyət davam etdirilməli, məhsuldarlığın artırılması sahəsində elmi-təcrübi tədbirlər görülməlidir. Əkinəyararlı torpaqlardan təyinatına uyğun istifadə olunmalı, mütərəqqi suvarma şəbəkələri qurulmalı, suvarma suyunun düzgün bölgüsünə və səmərəli istifadəsinə nəzarət gücləndirilməli, tələbata uyğun yeni kənd təsərrüfatı texnikaları və mineral gübrələr alınıb gətirilməlidir.***

***Muxtar respublikada ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi uğurlu nəticələrin qazanılmasına və əhalinin məşğulluğunun təmin olunmasına, ən əsası isə istehsal olunan məhsulların keyfiyyətinin və çeşidinin artırılmasına səbəb olmuşdur. Ona görə də qarşıdakı dövrdə də ailə təsərrüfatlarının fəaliyyətinə mühüm əhəmiyyət verilməli, istehsal olunmuş məhsulların satışına və ixracına köməklik göstərilməlidir.***



***Muxtar respublikada sığorta işi də təkmilləşdirilməli, aqrar sığorta bazarının formalaşmasına və inkişafına köməklik göstərilməli, Aqrar Sığorta Fondunun fəaliyyəti gücləndirilməlidir".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 8 yanvar tarixli Fərmanı və 30 dekabr 2021-ci il tarixli Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən Aqrar Sığorta Fondunun yaradılması kənd təsərrüfatının inkişafı üçün ardıcıl olaraq həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsidir.

Aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi baş verə biləcək müxtəlif halları əhatə edir. Bəllidir ki, kənd təsərrüfatı məhsullarının istehsalına zəlzələ, torpaq sürüşməsi, qasırğa, fırtına, dolu, sel və ya subasma, leysan, ildırım, şaxtavurma, normadan artıq qar yağması kimi təbii fəlakətlər, həmçinin yanğınlar, bitki xəstəlikləri və zərərvericiləri, yoluxucu xəstəlik və zəhərlənmələr, ilan və həşərat sancmaları, zəhərli otlar və yemlərdən zəhərlənmə, kütləvi zəhərlənmələr, kimyəvi maddələrin təsirindən zəhərlənmələr və nəticəsində ölüm, habelə vəhşi heyvanların hücumu, xüsusi təhlükəli ziyanvericilərin yayılması və hücumu, eləcə də üçüncü şəxslərin hərəkətləri nəticəsində xeyli zərərlər dəyə bilər. Aqrar sığorta bu gözlənilməz hadisələrdən dəyə biləcək zərərlərin kompensasiya olunmasına və ödənilməsinə təminat verir, kənd təsərrüfatı sahəsində çalışan sahibkarların daha təhlükəsiz işləməsinə, onların sabit gəlir əldə etməsinə şərait yaradır.

Aqrar Sığorta Fondunun Nizamnaməsində göstərildiyi kimi, bu fond muxtar respublikada aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını, habelə idarəedici qurumun formalaşdırılmasını təmin etmək və onun fəaliyyətinə nəzarət etmək məqsədilə yaradılmış qeyri-kommersiya hüquqi şəxsidir.

Ərzaq təhlükəsizliyinin gücləndirilməsi, idxalın əvəz edilməsi və ixrac potensialının gücləndirilməsi məqsədilə aqrar sığortanın predmetinə kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsulları üzrə 36 ədəd bitki – buğda, arpa, qarğıdalı, kartof, şəkər çuğunduru, limon, tütün, üzüm, badam, günəbaxan, soya, yonca, noxud yaşıl noxud, alça, albalı, alma, armud, çiyələk, ərik, gavalı, gilas, heyva, xurma, nar, şaftalı, cəviz, soğan, kələm, qarpız, yemiş (qovun), pomidor, sarımsaq, darı, fındıq, çəltik, kənd təsərrüfatı heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlar üzrə isə iribuynuzlu mal-qara (südlük istiqaməti üzrə 11-ci gündən 7 yaşa qədər, ətlik istiqaməti üzrə 11-ci gündən 3 yaşa qədər), xırdabuynuzlu heyvanlar (11-ci gündən 5 yaşa qədər), həmçinin akvakultura məhsulu üzrə balıqlar daxil edilir.

Qeyd edək ki, bu məhsulların sığortasında sığortahaqqının 50 faizi sığortalı tərəfindən, qalan 50 faizi isə dövlət büdcəsi vəsaiti hesabına ödəniləcək. Aqrar sığortanın bu istiqamətlərdə tətbiqi məşğulluğun artması ilə yanaşı, sadalanan məhsulların istehsalında artım, bazardakı qiymətlərin sabitləşməsi, investisiya risklərinin azaldılması, fermerlərin himayəsinin daha da yaxşılaşdırılması, istehsalı genişləndirmək üçün şəraitin təmin edilməsi və sığorta bazarının gücləndirilməsi məqsədi daşıyır.

Kənd təsərrüfatı bitkiləri məhsulun dəyərinin 70 faizi həcmində sığorta müqaviləsi bağlanılır. Həmin dəyərin 5 faizi həcmində sığortahaqqı alınacaq. Bu 5 faizlik sığortahaqqının, yuxarıda göstərildiyi kimi, 50 faizi dövlət büdcəsi tərəfindən qarşılanacaq. Məsələn, Culfa rayonunda 0,5 hektar sahədə buğda əkmiş kəndli fermerin hər hektardan 29,2 sentner məhsul götürməsi müəyyənləşdirilərsə, hər sentner məhsulun qiymətinə, yəni 35 manata vurulmaqla əldə olunmuş məhsulun dəyəri 511 manat təşkil edir ki, bu məhsulun 70 faizi, yəni 357 manat 70 qəpik sığorta məbləği kimi qəbul olunur və sığorta tarif dərəcəsi isə 5 faiz olduğundan sığortahaqqı 17 manat 88 qəpik təşkil edir və bunun da 50 faizi, yəni 8 manat 94 qəpiyi fermer, qalan 50 faizi isə dövlət büdcəsi vəsaiti hesabına ödənilir.

Yaxud da ki, 3 hektar sahədə buğda əkmiş kəndli fermer hər hektardan orta göstərici 29,2 sentner olarsa, bir sentner məhsulun qiymətinə, yəni 35 manata vurulmaqla 3 hektardan əldə olunmuş məhsulun dəyəri 3066 manat müəyyən edilir. Bu məhsulun 70 faizi, yəni 2146 manatı sığorta məbləği kimi qəbul olunur və sığorta tarif dərəcəsi isə 5 faiz olduğundan sığortahaqqı 107 manat 31 qəpik təşkil edir və bunun da 50 faizi, yəni 53 manat 65 qəpiyini fermerin, qalan 50 faizi isə dövlət büdcəsi vəsaiti hesabına ödənilir.

Onu da deyək ki, bir hektar əkinə görə rayonların orta məhsuldarlıq göstəricisi yerli xüsusiyyətlər, şərait və sair nəzərə alınmaqla müəyyənləşdirilmişdir.

Kənd təsərrüfatı heyvanlarına gəldikdə isə, yaş qruplarına görə heyvanların sığorta haqqı fərqli olacaq. Belə ki, 1 yaşdan 2 yaşadək olan inək və camışlar müvafiq olaraq 1000 və 1100 manat sığorta məbləği üçün 6-10 faiz həcmində sığortahaqqı hesablanmaqla 60 və 66 manat məbləğində olacaq ki, onun da 50 faizi sığortalı sahibkar, qalan 50 faizi isə dövlət büdcəsi hesabına ödənilir.

2 yaşdan 4 yaşadək isə inək və camışlar üçün 1400 və 1500 manat həcmində sığorta məbləği üçün yenə də 6 faiz həcmində sığortahaqqı hesablanmaqla müvafiq olaraq 84 və 90 manat məbləğində nəzərdə tutulur ki, onun da 50 faizi sığortalı, qalan 50 faizi isə dövlət büdcəsi hesabına ödənilir. 4 yaşdan 7 yaşadək olan inək və camışlar üçün sığorta məbləği 1900 və 2000 manat olmaqla, 6 faiz sığorta tarifi tətbiq olunmaqla sığortahaqları 114 və 120 manat təşkil edir ki, onun da 50 faizi sığortalı, qalan 50 faizi isə dövlət büdcəsi hesabına ödənilir. Xırdabuynuzlu heyvanlar üçün isə 11-ci günündən 3 yaşa qədər bazar dəyəri götürülür. Bir yaşdan yuxarı heyvanlar 8-12 faiz aralığında sığorta olunur.

Akvakultura məhsulları üzrə balıqların sığortalanması zamanı 1000 kiloqram balığın sığortalanması üçün 5000 manat sığorta məbləği müəyyənləşdirilməklə 6 faiz həcmində sığortahaqqı, yəni 300 manat ödəməklə sığorta təminatı verilir. Eyni zamanda bu sığortahaqqının 50 faizi, yəni 150 manat sığortalı, qalan 50 faizi isə dövlət büdcəsi hesabına ödənilir.

Beləliklə, aqrar sektorda fəaliyyət göstərənlər sahib olduqları arpa, buğda və digər əkin sahələrini, eləcə də mal-qarasını sığorta etdirməklə gözlənilməz hər hansı bir hadisə nəticəsində zərər çəkmiş əkin sahəsinə və mal-qarasına görə sığorta məbləği almış olacaqlar. Muxtar respublikamızda Aqrar Sığorta Fondunun yaradılması ilə bu sahəyə dövlət tərəfindən hərtərəfli dəstək verilir və sığortahaqqının isə 50 faizi büdcə vəsaiti hesabına ödənilir. Bütün bunlar həm ərzaq təhlükəsizliyinin təmin olunması, həm də fermerlərin mənafelərinin qorunması baxımından böyük əhəmiyyətə malikdir.

**Amil MƏMMƏDOV**
***"Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti" publik hüquqi şəxsin əməkdaşı***

# Zəhmət Əbülfət oğlu Şahverdiyev



Azərbaycan Respublikasının Əməkdar müəllimi, AMEA-nın müxbir üzvü, professor Şahverdiyev Zəhmət Əbülfət oğlu 2022-ci il martın 5-də, ömrünün 80-ci ilində vəfat etmişdir.

Zəhmət Şahverdiyev 1942-ci il noyabrın 11-də əzəli Azərbaycan torpağı olan Dərələyəz mahalının Kotanlı kəndində anadan olmuşdur. 1961-ci ildə orta məktəbi bitirmiş və 1966-1970-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Tarix ixtisası üzrə ali təhsil almışdır. 1970-ci ildə ali təhsilini bitirdikdən sonra göndəriş əsasında Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialına müəllim təyin olunmuşdur. 1975-1979-cu illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutunun aspirantı olan Zəhmət Şahverdiyev 1984-cü ildə namizədlik, 2011-ci ildə isə doktorluq müdafiəsini etmişdir.

O, 1970-1998-ci illərdə Naxçıvan Dövlət Universitetində müxtəlif vəzifələrdə çalışmış, 1998-2006-cı illərdə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin dekanı, 2006-cı ildən ömrünün sonuna qədər həmin fakültədə Azərbaycan tarixi kafedrasının müdiri, 2013-cü ildən Naxçıvan Dövlət Universitetinin professoru, 2014-cü ildən isə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü olmuşdur.

12 kitabın, 100-ə yaxın elmi məqalənin müəllifi olan Zəhmət Şahverdiyevin təhsil sahəsindəki fəaliyyəti yüksək qiymətləndirilmiş, 2007-ci ildə Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

Ömrünü elmin və təhsilin inkişafına həsr edən Zəhmət Şahverdiyevin xatirəsi unudulmayacaqdır.

Allah rəhmət eləsin!

**Naxçıvan Muxtar Respublikasının Ali Məclisi**

**Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti**

**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi**

**Naxçıvan Dövlət Universiteti**

# Milli Teatr Günü qeyd olunub

*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Milli Teatr Günü münasibətilə tədbir keçirilib.*





Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, hər zaman sənət adamlarına diqqət və qayğı ilə yanaşan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamı ilə ölkəmizdə hər il martın 10-u "Milli Teatr Günü" kimi qeyd edilir.

Milli teatrın yaranma tarixindən danışan nazir qeyd edib ki, çox qədim və zəngin yaradıcılıq nümunələrinə malik professional Azərbaycan teatr sənəti yarandığı gündən xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, təbliği, estetik zövqünün formalaşması, maarifləndirmənin sürətləndirilməsi kimi mühüm vəzifələrin öhdəsindən layiqincə gəlmiş, mütərəqqi ideyaların carçısı olmuşdur.

Bildirilib ki, uzun və şərəfli tarixi yol keçmiş Azərbaycan teatrının inkişafında son illərdə yeni mərhələ başlanmışdır. Teatrlarımızın yeni inkişaf yoluna çıxmasında mədəniyyət və incəsənətin böyük hamisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətləri misilsizdir. ***"Teatrımızın böyük tarixi, böyük ənənələri, gözəl nümunələri var. Milli teatr bu gün də, gələcəkdə də yaşayacaqdır"***, – deyən ulu öndərin bu siyasəti hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, son illərdə ölkədə teatr sənətinin inkişafı ilə bağlı bir sıra əhəmiyyətli dövlət sənədləri qəbul olunmuşdur.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında da teatrların fəaliyyətinə hərtərəfli qayğı göstərilir. Son illər muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, teatr binaları yenidən qurularaq istifadəyə verilmişdir. Qədim diyarımızda fəaliyyət göstərən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı tamaşaçıların mənəvi və estetik zövqünün formalaşmasında, asudə vaxtlarının səmərəli təşkilində əhəmiyyətli rol oynayır.

Müstəqillik illərində Naxçıvan teatrının tədqiqi ilə bağlı bir sıra uğurlu işlər də həyata keçirilmiş, monoqrafiya və kitablar nəşr olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə nəşr olunan "Naxçıvan teatrının salnaməsi" kitabı yüksək qiymətə layiqdir. Həmçinin muxtar respublikada teatr təhsili sahəsində də mühüm addımlar atılmış, Naxçıvan Dövlət Universitetində Aktyorluq sənəti ixtisası yaradılmışdır. Bunun nəticəsidir ki, hər il istər dövlət, istərsə də xalq teatrlarının heyətinə gənclər qatılır, yaradıqları obrazlarla teatrsevərlərin qəlbinə yol tapırlar.

Diqqətə çatdırılıb ki, muxtar respublikada teatr sənətinin inkişafında xidmətləri olan insanların əməyi də dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir. Yaradıcı insanlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, orden və medallara, Prezident təqaüdü və mükafatlarına layiq görülürlər.

Cəmiyyətimizin, xalqımızın milli dəyərlər ruhunda, mənəvi kamillik işığında inkişafına xidmət edən teatr sənətimiz milli sərvətimizdir. Ötən illərdə olduğu kimi, bundan sonra da Naxçıvan teatrları milli dəyərləri qorumaq və təbliğ etmək, tariximizin şərəfli səhifələrini yaşatmaq missiyasını layiqincə yerinə yetirəcəkdir.

Sonda nazir Naxçıvanda teatr sənətinin inkişafına göstərdiyi böyük diqqət və qayğıya görə muxtar respublikanın mədəniyyət ictimaiyyəti adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirin bədii hissəsində Xalq yazıçısı Elçin Əfəndiyevin "Teleskop" əsəri əsasında hazırlanan eyniadlı tamaşa nümayiş olunub. İnsanın ölümü və bundan sonra baş verənlərin səhnə həllini tapdığı tamaşada hadisələr qeyri-real olanla real olanın müstəvisində təqdim edilir. Rejissor tamaşa boyu gərgin, psixoloji məqamlarda sevinc və məyusluq, yaşamaq, yoxsa ölmək sualının cavabını tamaşaçıların ixtiyarına buraxır.

Gənc rejissor Həcərxanım Məmmədovanın quruluş verdiyi tamaşanın rəssamı Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimovadır. Xalq artistləri Rza Xudiyev, Rövşən Hüseynov, Əməkdar artistlər Əbülfəz İmanov, Əli Əliyev, Vidadi Rəcəbli, aktyorlardan Zəminə Məmmədova, Nazlı Hüseynquliyeva, gənc aktyorlar Səyyad Məmmədov, Anar Eyvazov, Səkinə Məmmədova, Şölə Alışova və başqaları obrazların dili ilə qarşıya qoyulan əsas məqsədə nail olub, tamaşaçıya real dünya ilə əbədi dünyanın müqayisəsində həyat gerçəkliklərini çatdırıblar.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Tibb fakültəsinin əməkdaşları beynəlxalq konqresdə iştirak ediblər

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov, fakültə müəllimlərindən tibb elmləri doktoru İsa Abdullayev və tibb üzrə fəlsəfə doktoru, dosent Cəbi İsmayılov Türkiyə Cümhuriyyətinin Adana şəhərində keçirilən V Çukurova Gastro-İntestinal Xəstəliklər və Cərrahi Konqresində iştirak ediblər. Beynəlxalq səviyyədə təşkil olunan konqresdə bir çox təcrübəli elm adamları olmaqla, 850-dən çox adam iştirak edib. Təcrübələrin paylaşılması məqsədilə 8 bölmədə keçirilən tədbirdə video və fototəqdimatlar üstünlük təşkil edib.



Türkiyə Ostomi Cərrahi Dərnəyi, Adana Egitim və Araşdırma Xəstəxanası, Adana Çukurova Universiteti, Azərbaycan Endoskopik Laproskoplar Dərnəyi, Gastroenteroloji Diyetoloqlar Dərnəyinin birgə təşkilatçılığı ilə keçirilən konqresdə cərrahi xəstəliklər başda olmaqla həzm sistemini təşkil edən orqanların ümumi və metabolik xəstəlikləri müzakirə edilib.

Konqresin açılış mərasimində çıxış edən Tibb fakültəsinin dekanı Elsevər Əsədov Naxçıvan Dövlət Universitetinin son illərdə qazandığı elmi uğurları, qardaş Türkiyə universitetləri ilə birgə aparılan beynəlxalq əməkdaşlıq məsələlərini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Konqresdə Tibb fakültəsinin Ümumi təbabət və klinik fənlər kafedrasının müəllimi, tibb elmləri doktoru İsa Abdullayevin "Kəskin pankreatitlərin müalicəsində müvəqqəti kimyəvi pankreatektomiyanın klinik əhəmiyyəti", həmin kafedranın dosenti Cəbi İsmayılovun "Hepatoeksternal öd yollarının İatrogen hasarları" və fakültə dekanı Elsevər Əsədovun "Naxçıvan Muxtar Respublikası ərazisindən əldə olunan arıçılıq məhsullarının həzm sistemi xəstəliklərinin müalicəsində rolu" mövzularında çıxışları dinlənilib.

Çıxışlarda qeyd edilib ki, ümumi cərrahiyyənin əsas mövzularından biri olan həzm sistemi xəstəliklərinin, xüsusən də xərçəngin yayılmasının günümüzdə çox artmasının şahidi oluruq. Bu sahədə açıq cərrahi əməliyyatla yanaşı, laparoskopik, robotik və endoskopik tətbiqlərin həyata keçirilməsinin məqsədəuyğunluğu da diqqətə çatdırılıb. Həmçinin müzakirələrdə qeyd olunub ki, müalicə prosesində uğurların qazanılması üçün bu sahədə sürətlə artan elmi araşdırmaları, nəşrləri və texnoloji inkişafı daim izləmək, müalicə üsullarının multidisiplinar müzakirə edilməsi vacibdir.

Konfransın yekununda iştirakçılara sertifikatlar təqdim olunub, gələcəkdə belə konqreslərin Naxçıvanda keçirilməsi də müzakirə edilib.

Qeyd edək ki, konqres ümumi cərrahlar, cərrah köməkçiləri, diyetoloqlar, tibb tələbələri və tibb işçiləri üçün mühüm əhəmiyyət daşıyan bir tədbir olub. Konqres texnologiya və cərrahiyyənin bir araya gəldiyi konfranslar, canlı yayımlar, ekspert məsləhətləşmələri və dəyirmi masa müzakirələri ilə yanaşı, təcrübəli mütəxəssislərlə görüş imkanlarının da dəyərləndirilməsi baxımından da öz əhəmiyyətliliyi ilə yadda qalıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# İstedadlı sağlamlıq imkanları məhdud şəxslərlə tələbələrin görüşü

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən, Naxçıvan Dövlət Universitetində Sosial iş ixtisası üzrə təhsil alan tələbələrlə görüşlərin, seminarların keçirilməsi, nazirliyin və onun tabeliyində olan sosial xidmət müəssisələrinin fəaliyyəti ilə onların tanışlığının təşkili hər il davam etdirilir. Bu istiqamətdə növbəti tədbir istedadlı sağlamlıq imkanları məhdud şəxslərin iştirakı ilə mart ayının 9-da "Naxçıvan" Universitetində keçirilib. İstedadı ilə fərqlənən sağlamlıq imkanları məhdud şəxslər – Nail Hacıyev və Xanım Qurbanovanın, "Naxçıvan" Universitetində təhsil alan 50 nəfərədək gənclə, o cümlədən sosial könüllülər və Sosial iş ixtisası üzrə təhsil alan tələbələrlə görüşü keçirilib.



Tədbiri giriş sözü ilə açan universitetin tədris və tərbiyə məsələləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu muxtar respublikada ali təhsil müəssisələrinin fəaliyyəti üçün yaradılan şəraitdən söz açıb.

Daha sonra çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı Naib Əlizadə isə sağlamlıq imkanları məhdud şəxslərin yaradıcılıq əzminin stimullaşdırılması istiqamətində nazirlik tərəfindən görülən işlərdən danışıb.

Tədbirin davamında Nail Hacıyev və Xanım Qurbanova görüş müddətində sağlamlıq imkanları məhdud olan şəxslərin cəmiyyətdəki rolu və istedadlarının üzə çıxarılmasına dair çıxışlar edib, uğur hekayələrinə dair təcrübələrini gənclərlə bölüşüblər. Motivasiya əhəmiyyətli təlim zamanı slaydlardan istifadə olunub, tələbələrin fərdi inkişaf və sosial münasibətlər mövzusunda sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# İmtahanlar vaxtında və şəffaf şəkildə keçirilir

Ötən ay qanunvericiliyin tətbiqinə nəzarət, işə qəbul, müsahibə və sertifikasiya imtahanlarının vaxtında və şəffaf şəkildə keçirilməsi Dövlət İmtahan Mərkəzi tərəfindən aidiyyəti üzrə davam etdirilib.

Yanvarın 25-dən başlayan dövlət qulluğuna qəbulun müsahibə mərhələsi fevralın 9-da başa çatıb. Müsahibənin nəticələrinə əsasən bu mərhələdə iştirak edən 183 namizəddən 79-u müvafiq keçid balını toplayıb. Keçid balını toplamış namizədlər haqqında qanuni qərarın qəbul edilməsi üçün sənədlər müvafiq olaraq aidiyyəti üzrə göndərilib.

Hesabat ayında təhsilverənlərin sertifikatlaşdırma imtahanları davam etdirilib. Bununla da muxtar respublika üzrə riyaziyyat, ibtidai sinif, Azərbaycan dili və ədəbiyyat müəllimlərinin sertifikatlaşdırılması tam başa çatdırılıb. Digər ixtisaslar üzrə imtahanlar müvafiq olaraq aprelin 7-nə qədər davam edəcək.

Fevralın 22-də tibb işçilərinin növbəti işə qəbul imtahanları keçirilib. Səhiyyə müəssisələrinin kadr ehtiyacının təmin edilməsi və ixtisaslı kadr potensialının artırılması məqsədilə keçirilən imtahanda 189-u orta ixtisas tibb işçisi, 25-i isə həkim vəzifəsi üzrə olmaqla, 214 namizəd qeydiyyatdan keçib. Onlardan 211-i imtahanlarda iştirak edib, 62 namizəd isə keçid balını toplayıb. İmtahanın yazılı şəkildə olacaq ikinci mərhələsinin qarşıdakı həftələrdə keçirilməsi nəzərdə tutulur.

Fevralın 24-də mərkəzin innovativ yeniliklərin tətbiqinin davam etdirilməsi istiqamətində fəaliyyətinə uyğun olaraq 23 dövlət orqanını təmsil edən nümayəndənin iştirakı ilə Dövlət orqanları işçilərinin reyestri proqramı təqdim olunub. Yeni proqram işçilərin elektron şəxsi işinin yaradılmasına imkan verir. 29 kateqoriya üzrə axtarış imkanı yaradılan proqrama statistik məlumatlar, hesabatlar, dövlət orqanları işçilərinin sayı, dövlət orqanlarının siyahısı haqqında, habelə dövlət işçilərinin stajı üzrə məlumatlar altbölmələri əlavə edilib. Reyestrin aparılmasına dair anket forması, arayış və sənədlər altbölməsi yaradılıb. Sənədlər altbölməsi dövlət orqanları işçilərinin elektron sənədlərinin toplanması, istifadəsi və arxivləşdirilməsi üçün əlverişli imkan yaradır.

Hesabat ayında Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunmuş dövlət qulluğuna qəbul üçün hazırlıq kurslarında 94 nəfər iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## "Əmlak" informasiya bülleteninin səkkizinci nömrəsi çapdan çıxıb




*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin "Əmlak" informasiya bülleteninin səkkizinci nömrəsi "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək keyfiyyətlə çapdan çıxıb.*

İnformasiya bülletenində Kəngərli rayonunda torpaqların su təminatının yaxşılaşdırılması məqsədilə qapalı suvarma şəbəkəsinin qurulması, Culfa şəhərində dövlət qurumları üçün yeni inzibati binanın və çoxmənzilli yaşayış binasının açılışına dair rəsmi məlumatlar yer alıb. Muxtar respublikada mülkiyyət növləri üzrə torpaqlardan istifadə vəziyyəti, əkinəyararlı torpaq sahələrindən digər məqsədlər üçün istifadənin qarşısının alınması, torpaqlardan istifadəyə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə aparılan monitorinqlər barədə xəbərlər yerləşdirilib.

Qəbul edilmiş Dövlət proqramlarına uyğun olaraq meyvə-tərəvəz əkinlərinin sahəsinin genişləndirilməsi, meyvə bağları və yaşıllıq sahələrinin uçotunun dəqiqləşdirilməsi, meşə və çoxillik əkmələrin mülkiyyət növləri və uqodiyalar üzrə xəritələşdirilməsi və inventarlaşdırılması ilə bağlı həyata keçirilmiş tədbirlərin icrası nömrədə geniş işıqlandırılıb. Nömrədə, həmçinin xidmətin fəaliyyət istiqamətləri üzrə muxtar respublikanın rayonlarında keçirilmiş maarifləndirici tədbirlərə dair xəbərlərə də yer ayrılıb.

Vətəndaşlardan daxil olan sorğular əsasında sual-cavab rubrikası hazırlanıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Maarifləndirici tədbir



Dünən Naxçıvan Muxtar Respublika Xəstəxanasında "Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti" publik hüquqi şəxs tərəfindən maarifləndirici tədbir keçirilib. Tədbiri giriş sözü ilə xəstəxananın baş həkiminin müavini Ramazan Abbasov açıb.

Sonra "Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti" publik hüquqi şəxsin əməkdaşları Mehdi Bağırov, Amil Məmmədov və Vüsal Ağayev çıxış edərək aqrar sığorta, daşınmaz əmlakın icbari sığortası və fiziki şəxslərə məxsus olan əmlakın sığortası haqqında, eləcə də fərdi qəza sığortası, fiziki şəxslərə məxsus olan heyvanların sığortası və avtomobil nəqliyyat vasitələrinin tam sığortası barədə geniş məlumat veriblər.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan gömrükçüləri 228 kiloqrama yaxın narkotik vasitə aşkarlayıb




Naxçıvan gömrükçüləri tərəfindən daha iki fakt üzrə narkotik qaçaqmalçılığı cəhdlərinin qarşısı alınıb. Belə ki, Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Niderland Krallığına unlu qənnadı məmulatları aparan, Türkiyə Respublikası vətəndaşının idarə etdiyi 76AAG563/76AAK437 dövlət nömrə nişanlı "Mercedes-Benz" markalı nəqliyyat vasitəsi Culfa dövlət sərhədindən buraxılış məntəqəsində risk meyarı əsasında rentgen qurğusundan keçirilməklə yoxlanılıb. Müəyyən olunmuş şübhəli rentgen təsvirləri əsasında aparılan əsaslı yoxlama zamanı nəqliyyat vasitəsinin qoşqusuna yüklənmiş 32 ədəd taxta paletin ayaqlarında xüsusi üsulla gizlədilmiş ümumi çəkisi 113 kiloqram 820 qram olan narkotik vasitə – heroin aşkar edilib.

Həmin nəqliyyat vasitəsinin ardınca Naxçıvan Muxtar Respublikası ərazisinə tranzit giriş edən, eyni daşıyıcı şirkətə məxsus, hərəkət marşrutu, yükü, idxalatçı və ixracatçının rekvizitləri eyni olan, Türkiyə Respublikası vətəndaşının idarə etdiyi 76AAJ134/76AAG184 dövlət nömrə nişanlı "Mercedes-Benz" markalı nəqliyyat vasitəsinə Culfa dövlət sərhədindən buraxılış məntəqəsində gömrük baxışı həyata keçirilən zaman isə nəqliyyat vasitəsinin qoşqusuna yüklənmiş 32 ədəd taxta paletin ayaqlarında xüsusi üsulla gizlədilmiş ümumi çəkisi 113 kiloqram 835 qram olan narkotik vasitə – heroin aşkar edilib.

Oxşar gizlətmə üsulundan istifadə edilməklə törədilmiş hər iki qaçaqmalçılıq əməli üzrə aşkarlanmış narkotik vasitənin ümumi xalis çəkisi 227 kiloqram 655 qram təşkil edib.

Qeyd olunan faktlarla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206-cı maddəsinə (Qaçaqmalçılıq) uyğun olaraq hər iki şəxs barəsində cinayət işi açılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Qardaş ölkənin mühasib xanımları ilə görüş keçirilib




*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin təşəbbüsü və İstanbul Sərbəst Mühasiblər Palatasının birgə təşkilatçılığı ilə onlayn görüş keçirilib.*

Tədbirin məqsədi iki qardaş ölkənin mühasib qadınlarını bir araya toplamaq, Türkiyə-Azərbaycan dostluğunu bütün sahələrdə olduğu kimi, mühasibatlıq sahəsində də möhkəmləndirmək, işgüzar əlaqələri genişləndirməkdən ibarət olub.

Tədbirin moderatorları Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru Mehriban İmanova və İstanbul Sərbəst Mühasiblər Palatasının xəzinədarı Gülgün Öztürk Türkiyə ilə Azərbaycan arasında tarixboyu sarsılmaz dostluq və qardaşlıq əlaqələri yaradıldığını, hər iki xalqın bütün sahələrdə birbirinə dəstək verdiyini bildiriblər. Sonra bu dostluğu əks etdirən videoçarx nümayiş etdirilib.

Mehriban İmanova İstanbul Sərbəst Mühasiblər Palatası ilə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi və Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası arasında dostluq və əməkdaşlığın bünövrəsinin ötən il Naxçıvanda keçirilən Mühasiblərin və Auditorların VII Avrasiya forumunda qoyulduğunu, bu layihənin ilk olduğunu və daha böyük layihələrə imza atacaqlarını qeyd edib. Forumdan xatirələri əks etdirən slayd nümayiş olunub.

Tədbirdə iştirak edən İstanbul Sərbəst Mühasiblər Palatasının sədri Yücəl Akdəmir Naxçıvanla bağlı öz təəssüratlarını bölüşüb, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının İdarə Heyətinin sədri Nuriyyə Novruzova, Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası İdarə Heyətinin sədri Günay Şahbazova, "Gənc Mühasiblər" İctimai Birliyinin sədri Solmaz Əliyeva öz təşkilatları haqqında məlumat veriblər.

Dünya üzrə 3 milyondan çox peşəkar mühasibi birləşdirən Beynəlxalq Mühasiblər Federasiyasının sədri Alan Johnson Amerika Birləşmiş Ştatlarından tədbirə qoşularaq fikirlərini bölüşüb.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Dezinfeksiya tədbirlərinin növbəti mərhələsinə başlanılıb



*Naxçıvanda əhalinin sağlamlığının qorunması üçün infeksiyaların, yoluxucu xəstəliklərin yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə martın 9-dan növbəti genişmiqyaslı dezinfeksiya tədbirlərinə başlanılıb. Tibbi-profilaktik tədbirlər martın 27-dək davam etdiriləcək.*

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin, Gigiyena və Epidemiologiya Mərkəzinin və Dövlət Baytarlıq Xidmətinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında viruslara yoluxmanın qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə növbəti intensiv qabaqlayıcı profilaktik tədbirlərə başlanılıb.

Bu məqsədlə tərtib olunan qrafik əsasında səhər saatlarından etibarən Fövqəladə Hallar Nazirliyinin 5 xüsusi təyinatlı avtomobilinin iştirakı ilə Naxçıvan şəhərinin avtomobil yolları dərmanlanıb. Belə ki, şəhərin Heydər Əliyev prospekti, Əziz Əliyev, Cəlil Məmmədquluzadə, "İstiqlal" və digər küçələrinin avtomobil yolları və piyada səkiləri dezinfeksiya olunub.

Şəxsi heyətin iştirakı ilə Heydər Əliyev Muzeyinin, Naxçıvan Dövlət Musiqili Dram Teatrının, "İstiqlal" küçəsində, Çənlibel məhəlləsindəki yaşayış binalarının girişi, ətrafı və zirzəmiləri, "Görüş yeri" kafesi, "Əyləncə adası" və "Sahil Parkı" istirahət mərkəzləri və digər ictimai yerlərin ətrafı dərmanlanıb.

Əhalinin yoluxucu xəstəliklərdən qorunması istiqamətində dərmanlama tədbirləri muxtar respublikanın rayonlarında da həyata keçirilib. Qrafik əsasında Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının avtomobil yolları 7 xüsusi texnikanın köməyi ilə dezinfeksiyaedici maddələrlə yuyulub. Həmçinin ictimai yaşayış binalarında, ticarət mərkəzlərində, avtovağzallarda, insanların sıx toplaşdıqları digər yerlərdə dezinfeksiyaedici maddələrlə tibbi-profilaktik tədbirlər həyata keçirilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Novruz bayramı ilə əlaqədar yarmarka olacaq



*Naxçıvan şəhəri, Xətai küçəsində yerləşən Mərkəzi Bazarda və rayon mərkəzlərində martın 14-dən 20-dək ailə təsərrüfatı, sənaye və kənd təsərrüfatı məhsullarının satış yarmarkası keçiriləcəkdir.*

Yarmarkanın keçirilməsində məqsəd həm əhalinin kənd təsərrüfatı və ərzaq məhsullarına artan tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, eyni zamanda süni qiymət artımının qarşısının alınmasıdır.

Hər gün səhər saat 8-dən başlayacaq yarmarkada alıcılar ekoloji təmiz, təbii və keyfiyyətli meyvə-tərəvəz, müxtəlif çərəzlər, qablaşdırılmış məhsullar, ət və süd məhsulları, bal və digər məhsulları ala biləcəklər.

Yarmarkada muxtar respublikanın bütün bölgələrindən ailə təsərrüfatlarının istehsalı olan müxtəlif çeşiddə məhsullar bazar qiymətlərindən daha sərfəli qiymətlərlə alıcılara təklif ediləcək.

Yarmarkalarda məhsulların keyfiyyətinə və qiymətlərinə aidiyyəti qurumlar tərəfindən nəzarət olunacaq.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Müsabiqə qalibləri mükafatlandırılıb

Yaxın günlərdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən Kenquru Beynəlxalq riyaziyyat müsabiqəsinin qalibləri mükafatlandırılıb. Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov iştirak edib. Hər il mərkəzi Fransa olmaqla dünyanın 80-dən çox ölkəsində təşkil olunan müsabiqə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə 14 noyabr 2021-ci il tarixdə muxtar respublikada da keçirilib. Müsabiqədə təhsil müəssisələrinin II-X siniflərində təhsil alan 2302 şagird riyaziyyat fənni üzrə öz biliklərini yoxlayıblar. Təşkilat Komitəsi tərəfindən müsabiqənin nəticələri qiymətləndirilib, muxtar respublika şagirdlərindən 43 nəfər qaliblər sırasına daxil edilib. Bunlardan 10-u I, 14-ü II, 19-u isə III yerin qalibləridir. Müsabiqə qaliblərinə diplom və medallar təqdim olunub.

Qeyd edək ki, müsabiqə və olimpiadaların keçirilməsində məqsəd xüsusi istedadlı uşaqların üzə çıxarılması, şagirdlərdə fənlərə olan marağın artırılması, onların sağlam rəqabət mühitində öz bilik və bacarıqlarını nümayiş etdirmələrinə və peşə seçiminə hazırlanmasına zəmin yaradılmasından ibarətdir.

**Xəbərlər şöbəsi**

## Şahmatçılar üçün ustad dərsləri



Sədərək Rayon Uşaq-Gənclər Şahmat Məktəbində şagirdlər üçün ustad dərsləri təşkil olunub.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının Sədərək rayon bölməsinin, Təhsil Şöbəsinin və Uşaq-Gənclər Şahmat Məktəbinin birgə təşkilatçılığı ilə keçilən ustad dərslərinə beynəlxalq usta, beynəlxalq hakim və şahmat üzrə Azərbaycanın qadınlardan ibarət yığma komandasının baş məşqçisi Fikrət Sideifzadə rəhbərlik edib.

Ustad dərsinin keçilməsində məqsəd yeniyetmə və gənclərə şahmata marağın aşılanması, onların sağlam ruhda tərbiyə edilməsi, asudə vaxtlarının səmərəli təşkili, zehni məşğələlərə stimullaşdırılması, eləcə də onların peşəkar idmançı kimi yetişməsinə təkan verməkdir. Beynəlxalq usta Fikrət Sideifzadə 15 şahmatçıya mövzu ilə bağlı faydalı məsləhətlərini verib.

Daha sonra dərəcəli şahmatçılarla debütlərin prinsipləri və sonluq strategiyaları ilə bağlı oyunlar təhlil olunub, şagirdləri maraqlandıran suallar cavablandırılıb.

Həmçinin şahmat məktəbində Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədr müavini Emin Hacıyevin və Azərbaycanın qadınlardan ibarət yığmasının baş məşqçisi Fikrət Sideifzadənin şahmatçı şagirdlərlə görüşü keçirilib.

Keçirilən görüşdə şagirdləri maraqlandıran suallar cavablandırılıb.

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Məmmədov İlqar Vəliyullah oğlunun adına olan 112 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 224